**AZƏRBAYCAN RESPUBLİKASININ SƏFİRLİYİ**
**Berlin**

**BOTSCHAFT DER REPUBLIK ASERBAIDSCHAN**
**Berlin**

İsmail Rustam

Berlin, 10.09.2013

Hörmətli İsmayıl Rüstəm,

Sizin Avropa İnsan Hüquqları Məhkəməsi və eyni zamanda Almaniyanın müxtəlif məhkəmə instansiyalarında hüquqlarınızın müdafiəsi ilə bağlı Azərbaycan Respublikasının AFR-dəki Səfirliyinə müraciətlərinizlə bağlı aşağıdakıları diqqətinizə çatdırmaq istərdik:

Almaniya Federativ Respublikasının (AFR-in) müvafiq orqanları tərəfindən hüquqlarınızın pozulması iddiası ilə əlaqədar müraciətiniz Azərbaycan Respublikasının AFR-dəki Səfirliyi tərəfindən araşdırılmış, hüquqi və təşkilatı istiqamətlərdə bir sıra işlər həyata keçirilmişdir. Belə ki, tərəfinizdən Səfirliyə 7000 səhifədən artıq olan məhkəmə prosesləri və digər problemlərinizlə əlaqədar təqdim olunmuş sənədlər Səfirlik tərəfindən araşdırılmış və vəkil Dr. Pərviz Yazdaniyə tapşırılmışdır. Tərəfinizdən Almaniyanın məhkəmə orqanlarına qarşı qaldırılmış iddianız vəkil P.Yazdani tərəfindən hərtərəfli araşdırılaraq təhlil olunmuş və bununla bağlı Sizə hüquqi məsləhətlər verilmişdir.

Eyni zamanda məlum olmuşdur ki, Sizin iddianız ilə bağlı vəkil P.Yazadani tərəfindən araşdırma aparıldığı zaman, Siz şəxsən Avropa İnsan Hüquqları Məhkəməsi qarşısında iddia qaldırmısınız. Qeyd olunan iddia Avropa İnsan Hüquqları Konvensiyasının müvafiq müddəalarına uyğun tərtib olunmadığı üçün məhkəmə tərəfindən təmin olunmamış və Sizin qısa müddət ərzində yenidən Məhkəməyə müraciət etməyiniz xahiş olunmuşdur. Bununla əlaqədar Səfirlik tərəfindən tutulmuş vəkil P.Yazadani iddianın baxılma müddətinin uzadılması ilə bağlı adınızdan Avropa İnsan Hüquqları Məhkəməsinə müvafiq məktub ünvanlanmış, lakin bu iddia da qeyd edilən məhkəmə tərəfindən qəbul olunmamışdır. Sizin dəfələrlə etiraf etdiyiniz kimi, bu və ya digər məhkəmə iddianız ilə bağlı müəyyən dövrlərdə bir çox almaniyalı vəkil və hüquqşünaslar iddianızı araşdıraraq, bunun perspektivsiz olduğunu bildirmişlər.

Qeyd etmək lazımdır ki Siz, cənab Səfir Pərviz Şahbazov və Səfirliyin bir sıra digər əməkdaşları tərəfindən müəyyən dövrlərdə Səfirliyə dəvət olunmuş və atacağınız müvafiq addımlar barədə sizinlə fikir mübadiləsi aparılmışdır. Eyni zamanda müxtəlif

dövrlərdə Səfirlik tərəfindən Sizə konsulluq-hüqüq yardımı göstərilmişdir. Qeyd olunan yardım Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun və eyni zamanda diplomatik nümayəndəliyinin xaricdəki səlahiyyətləri çərçivəsində həyata keçirilmişdir.

Yuxarıda qeyd olunanlarla yanaşı bildirmək istərdik ki, Azərbaycan Respublikasının AFR-dəki Səfirliyi Azərbaycan Respublikası Konstitusiyasının 53-cü, Azərbaycan Respublikası Konsul Nizamnaməsinin 23 və 24-cü maddələrinin tələblərini nəzərə alaraq sizə pozulmuş hüquqlarınızın təmin olunması istiqamətində müvafiq hüquqi yardımı göstərməyə hazırdır.

Bununla əlaqədar Səfirliyin əməkdaşı ilə son telefon danışığında müəyyən edildiyi kimi Sizi növbəti dəfə Səfirliyə dəvət edirik.

Hörmətlə,

Ziya Fətəliyev

Azərbaycan Respublikasının
AFR-dəki Səfirliyinin Konsulluq şöbəsi